**Prezident İlham Əliyev: «Əsas iqtisadi göstəricilərimiz çox müsbətdir»**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 16-da Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclası giriş nitqi ilə açan Prezident İlham Əliyev birinci rübün sosial-iqtisadi yekunlarını müsbət qiymətləndirmiş və bütün vəzifələrin icra edildiyini bildirmişdir: «Əsas iqtisadi göstəricilərimiz də çox müsbətdir. Ümumi iqtisadi inkişaf çox yüksək templərlə ölçülməsə də, qeyri-neft iqtisadiyyatımız sürətlə artmaqdadır. Birinci rübdə ümumi daxili məhsul 0,5 faiz artmışdır. Ancaq qeyri-neft sektorunda ümumi daxili məhsul 7,7 faiz artmışdır. Bu, çox gözəl göstəricidir və son ayların, illərin göstəricisidir.

İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində atılmış addımlar bəhrəsini verir. Əgər sənaye istehsalına nəzər salsaq görərik ki, ümumi sənaye istehsalı 0,3 faiz azalmış, ancaq qeyri-neft sənayemiz 16,5 faiz artmışdır. Bu, səhv etmirəmsə, müstəqillik dövründə ən yüksək, rekord göstəricidir və yenə də son illər ərzində apardığımız islahatların məntiqi nəticəsidir. Çünki qeyri-neft sənayesinin inkişafı ilə bağlı mənim tərəfimdən dəfələrlə müvafiq göstərişlər verilmişdir, konkret addımlar atılmışdır».

Cari ilin birinci rübündə makroiqtisadi göstəricilərin müsbət olduğunu diqqətə çatdıran dövlət başçısı inflyasiyanın cəmi 3,1 faiz təşkil etdiyini, əhalinin pul gəlirləriinin isə 14 faiz artdığını bildirmişdir. Prezident İlham Əliyev qeyd etmişdir ki, əhalinin pul gəlirləri inflyasiyanı on faizdən də çox üstələyir. Bu, onu göstərir ki, bizim büdcəmiz ildən-ilə artır və bu ilin dövlət büdcəsi 20 milyard dollardan çoxdur. İcmal büdcə təqribən 25 milyard dollara bərabərdir. Sosial proqramlar uğurla icra edilir. Xüsusilə, sovet dövründən qalmış əmanətlərin qaytarılması prosesi başlayır. İnflyasiyanı belə aşağı səviyyədə saxlamaq çox böyük nəticədir.

Prezident İlham Əliyev dünyada davam edən qlobal maliyyə və iqtisadi böhranın hələ də bir çox dövlətlərin iqtisadiyyatına mənfi təsirlərindən bəhs edərək Azərbaycanın bu proseslərdən kənarda qalmasına diqqət çəkmiş, respublikamızda investisiya və sosial proqramların icra edildiyini vurğulamışdır. Dövlət başçısı qeyd etmişdir ki, bu ilin birinci rübündə strateji valyuta ehtiyatlarımız artaraq 43 milyard dollardan çox olmuşdur. Bu, nəinki ölkəmiz üçün, dünya miqyasında strateji valyuta ehtiyatlarına malik olan suveren ölkələr arasında çox gözəl göstəricidir. «Biz o ehtiyatları ildən-ilə, rübdən-rübə daha da artıracağıq. Bu vəsaitin səmərəli işləməsi və bu vəsaitdən əldə ediləcək əlavə gəlirlər, əlbəttə ki, gələcəkdə maliyyə vəziyyətimizi daha da yaxşılaşdıracaq, ölkədə yeni investisiya layihələrinin həyata keçirilməsi üçün şərait yaradacaqdır», - deyə bildirən Prezident İlham Əliyev valyuta ehtiyatlarının səmərəli şəkildə lazım olan sahələrə qoyulacağını bildirmişdir.

Ölkəmizdə bütün istiqamətlərdə işlərin plan üzrə, konkret proqramlar üzrə getdiyini qeyd edən dövlət başçısı Dövlət İnvestisiya Proqramının tam şəkildə, vaxtında və yüksək keyfiyyətlə icra edilməsinin vacib olduğunu da diqqətə çatdırmışdır. Prezident İlham Əliyev yeni Dövlət İnvestisiya Proqramının hazırlanacağını da qeyd etmiş, burada ölkənin hər bir bölgəsi üzrə inkişaf layihələrinin nəzərə alınacağını bildirmişdir.

Prezident İlham Əliyev ölkəmizdə sahibkarlığın inkişafından bəhs edərək sahibkarlar sinfinin gücləndiyini və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu il 200 milyon manat güzəştli kreditlərin verilməsinin nəzərdə tutulduğunu bildirmişdir. Kreditlərin yeni iş yerlərinin açılmasında mühüm rol oynadığını bildirən dövlət başçısı birinci rübdə 24 min yeni iş yerinin açıldığını qeyd etmişdir.

Azərbaycanın beynəlxalq iqtisadi inkişafla bağlı reytinqinə toxunan Prezident İlham Əliyev bildirmişdir ki, Dünya İqtisadi Forumu, Davos İqtisadi Forumu iqtisadiyyatların rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı MDB məkanında birinci yerə layiq görür: «Standard and Poor» beynəlxalq reytinq agentliyi Azərbaycanın kredit reytinqini artırıb, halbuki inkişaf etmiş Avropa ölkələrinin kredit reytinqləri aşağı salınıb. Biznesin sadələşdirilməsi və biznes imkanlarının genişləndirilməsi istiqamətində atılan addımlar da qiymətləndirilir».

Dövlət başçısı ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini qeyd etmiş, Azərbaycanı dünya miqyasında çox böyük hörmətə malik olan ölkə kimi qiymətləndirmişdir: IBiz bu ildən başlayaraq BMT Təhlükəsizlik Şurasının üzvüyük və bu vəzifəyə çox böyük məsuliyyətlə

yanaşırıq. Bu mötəbər quruma üzv seçildikdə mən demişəm, bir daha demək istəyirəm ki, biz Təhlükəsizlik Şurasında, ilk növbədə, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və müdafiə edirik. Bizim mövqeyimiz ədalətlidir, ölkəmizin müstəqil siyasəti üzərində qurulubdur. Biz ədaləti müdafiə edirik və edəcəyik. İlk günlərdən Azərbaycan Təhlükəsizlik Şurasında öz prinsipiallığı, mövqeyi ilə seçilir. Biz heç vaxt öz mövqeyimizi gizlətməmişik və heç vaxt gizlətməyəcəyik, çünki bizim mövqeyimiz ədalətli mövqedir».

Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyi dəyişməz olaraq qalır. lAzərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa edilməli, işğalçı qüvvələr torpaqlarımızdan geri çəkilməlidir. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz tam şəkildə bərpa ediləcəkdir» deyə bildirən dövlət başçısı Azərbaycanın artıq güclü ordusunun olduğunu, silahlı qüvvələrin istənilən vəzifəni - ölkəmizin bütün maraqlarını müdafiə etmək üçün hazır və qadir olduğunu qeyd etmişdir.

İclasda çıxış edən vergilər naziri Fazil Məmmədov ölkəmizin sosial-iqtisadi və mədəni modernləşmənin yeni keyfiyyət mərhələsinə daxil olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanın bütövlükdə regionun ən nüfuzlu dövlətinə çevrilməsi, ilk növbədə, elmi əsaslar üzərində irəli sürülmüş milli iqtisadi inkişaf strategiyası ilə bağlıdır. lAzərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev praqmatik liderlik keyfiyyətləri sahəsində yeni dövr üçün qarşıda duran prioritet vəzifələri dəqiq müəyyənləşdirmişdir» deyən nazir Fazil Məmmədov ölkə başçısının rəhbərliyi ilə son illər ardıcıl və sistemli şəkildə həyata keçirilən çoxşaxəli islahatların bütün strateji əhəmiyyətli sahələrdə əsaslı dəyişikliklərə səbəb olduğunu vurğulamışdır. Fazil Məmmədov bildirmişdir ki, həyata keçirilən düşünülmüş dövlət siyasəti iqtisadi sahədə ənənəvi hesab edilən neft-qaz sektoru ilə yanaşı investisiya, sahibkarlıq, maliyyə-bank sektoru, kənd təsərrüfatı kimi böyük sahələrdə də dinamik inkişafa səbəb olmuşdur». «İqtisadi təhlükəsizlik yastığı» olan strateji valyuta ehtiyatlarının makroiqtisadi riskləri tam neytrallaşdıra bilən səviyyəyə çatması, iqtisadi artımın qeyri-neft sektorundan qaynaqlanması, inflyasiyanın optimal idarə olunan birrəqəmli səviyyədə saxlanması davamlı inkişafa möhkəm zəmin yaratmışdır. Bu ilin birinci rübü ərzində Azərbaycan iqtisadiyyatının davamlı inkişafı ölkədə insanların gəlirlərinə də müsbət təsir göstərmiş, nəticədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 8,5 faiz yüksələrək 368,5 manat, əhalinin gəlirləri 13,9 faiz artaraq 7 milyard 231,6 milyon manat təşkil etmiş, hər nəfərə düşən gəlirlər isə 12,3 faiz artmışdır. Milli valyutanın sabit kursunun saxlanılması və əhalinin ümumi gəlirlərinin yüksəlməsi fonunda inflyasiyanın cəmi 3,1 faiz təşkil etməsi hesabat rübündə banklara qoyulan əmanətlərin həcminin 4,3 faiz artmasına səbəb olmuşdur».

Vergilər naziri qeyd etmişdir ki, 2012-ci ilin birinci rübü ərzində dövlət büdcəsinə 3 milyard 487,7 milyon manat və ya ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz və yaxud 719,3 milyon manat çox vəsait daxil olmuşdur: lDaxilolmanın 1 milyard 390,4 milyon manatı Vergilər Nazirliyinin, 251,7 milyon manatı Dövlət Gömrük Komitəsinin, 1 milyard 839,8 milyon manatı isə Dövlət Neft Fondunun xətti ilə təmin edilmişdir. Cari ilin birinci rübündə dövlət büdcəsinin xərcləri 2 milyard 843,2 milyon manat, ötən ilin eyni dövrü ilə müqayisədə isə 755,8 milyon manat və ya 36,2 faiz çox icra olunmuşdur. Xərclərin 41,4 faizi və ya 1 milyard 178 milyon manatı sosialyönümlü olmaqla, ötən ilin müvafiq dövrü ilə müqayisədə 178 milyon manat və ya 17,8 faiz çox olmuşdur. Bu ilin birinci rübündə dövlət büdcəsindən investisiya xərclərinə 1 milyard 15 milyon manat vəsait yönəldilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faiz çoxdur». Fazil Məmmədov Vergilər Nazirliyinin xətti ilə 2012-ci ilin birinci rübündə dövlət büdcəsinə neft-qaz sektoru üzrə 598,7 milyon manat, qeyri-neft-qaz sektoru üzrə isə 791,7 milyon manat vəsait daxil olduğunu bildirmişdir. lQeyri-neft-qaz sektoru üzrə daxilolmalarda ötən ilin müvafiq dövrünə nisbətən 111,5 milyon manat və ya 16,4 faiz, o cümlədən sənayedə 28,1 faiz, tikintidə 27,5 faiz, xidmət sahəsində 19,1 faiz, pərakəndə ticarətdə isə 11,2 faiz artıma nail olunmuşdur».

Vergiləri naziri onu da qeyd etmişdir ki, regionların inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının icrası nəticəsində 2012-ci ilin birinci rübündə ötən ilin müvafiq dövrünə nisbətən regionlar üzrə vergi daxilolmaları 13,3 faiz artaraq 110 milyon manat olmuş, ümumi vergi daxilolmalarının 8 faizini, qeyri-neft sektoru üzrə daxilolmaların isə 14 faizini təşkil etmişdir.

Elektron xidmətlər göstərilməsi ilə bağlı görülən işlərdən danışan vergilər naziri Fazil Məmməmdov bildirmişdir ki, biznes mühitinin yaxşılaşdırılması məqsədilə ötən ilin ortalarından fiziki

şəxslərin, bu ilin əvvəlindən isə hüquqi şəxslərin internet vasitəsilə elektron qeydiyyatına başlanılmış, artıq 11 mindən yuxarı sahibkar elektron qaydada qeydiyyata alınmışdır ki, bu da ümumi qeydiyyatın 60 faizini təşkil edir.

Ölkəmizdə POS-terminalların tətbiqi ilə bağlı işlərin daha da sürətləndirildiyini diqqətə çatdıran vergilər naziri hazırda respublikamızın bütün ərazisində, xüsusilə Bakı şəhəri və turizm xəritəsinə aid olan mərkəzlərdə fəaliyyət göstərən mehmanxanalarda, ticarət, iaşə, istirahət və əyləncə obyektlərində, taksilərdə, yanacaq doldurma məntəqələrində və digər sahələrdə POS-terminalların quraşdırılmasının təmin edildiyini qeyd etmişdir: lArtıq Bakı şəhərində POS-terminal quraşdırılmalı 25 445 aktiv obyektin 18 minində və ya 71 faizində, turizm sektoruna aid olan obyektlərin isə 90 faizindən çoxunda POS-terminallar fəaliyyət göstərir. Qalan obyektlərdə isə yaxın 15-20 gün ərzində POS-terminalların quraşdırılması başa çatdırılacaqdır. Beləliklə, 6-10 min arası əlavə POS-terminal fəaliyyət göstərəcəkdir. Görülmüş işlər nəticəsində respublika üzrə POS-terminalların sayı artıq 23 mini ötmüşdür. Cari ilin birinci rübü ərzində quraşdırılmış POS-terminalların sayında 2011-ci ilin müvafiq dövrünə nisbətən 9,3 dəfə, o cümlədən regionlarda 4,6 dəfə artım müşahidə edilmişdir. Prosesinq mərkəzləri tərəfindən əvvəllər gün ərzində maksimum 15-20 POS-terminalın qeydiyyatının aparılması mümkün olduğu halda, hazırda elektron prosedurların tətbiqi nəticəsində bu rəqəm 400-ə çatdırılmışdır». Vergilər naziri Fazil Məmmədov onu da bildirmişdir ki, Nazirlər Kabinetinin yanacaqdoldurma məntəqələrində nəzarət-kassa aparatlarının tətbiqi haqqında müvafiq Qərarının icrası ilə əlaqədar çek vurulmadan neft məhsullarının və maye qazın buraxılmasını istisna edən nəzarət-kassa aparatlarının tətbiqinə başlanılmış, artıq mövcud yanacaqdoldurma məntəqələrinin 67,8 faizində bu tipli aparatların quraşdırılması təmin edilmişdir.

Müşavirədə çıxış edən səhiyyə naziri Oqtay Şirəliyev, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov rəhbərlik etdikləri sahələrdə əldə olunmuş inkişafdan danışmış, qarşıda duran vəzifələrin icrası ilə bağlı nəzərdə tutulan tədbirlərdən bəhs etmişlər.

Tədbirdə yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev cari ilin birinci rübündə əldə olunmuş sosial-iqtisadi göstəriciləri yüksək qiymətləndirmiş, ikinci rübdə makroiqtisadi inkişafın daha da sürətləndiriləcəyinə əmin olduğunu diqqətə çatdırmışdır. lİkinci rüb ilə bağlı bütün vəzifələr bəllidir, bütün göstərişlər verilibdir, bütün proqramlar vardır. Makroiqtisadi sabitlik qorunmalıdır», deyə bildirən dövlət başçısı maliyyə sabitliyi ilə yanaşı inflyasiyanın ilin sonuna qədər birrəqəmli səviyyədə saxlanması üçün lazımi tədbirlərin görülməsini vacib addımlardan biri kimi qiymətləndirmişdir.

Elektron xidmətlərin geniş şəkildə tətbiq edilməsini korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə çox böyük amil hesab edən dövlət başçısı ölkəmizdə elektron xidmətlərin göstərilməsi ilə bağlı bir sıra nazirlik və komitələr tərəfindən işlərin sürətləndirməsinin zəruriliyini qeyd etmiş, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin daha da ciddi aparılmasının vacib olduğunu bildirmişdir.

İclasda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün tədbirlərin gücləndirilməsinin vacibliyinə toxunulmuş, bu sahəyə dövlət kreditlərinin həcminin artıracağı qeyd olunmuşdur. Dövlət başçısı bölgələrdə emal və aqroservis müəssisələrinin sayının artırılmasının əsas məsələllərdən biri olduğunu bildirmiş, ölkəmizin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün qarşıda daha mühüm işlərin görülməli olduğunu diqqətə çatdırmışdır. Prezident İlham Əliyev investisiya və infrastruktur layihələrinin icrası sayəsində respublikamızın inkişafının daha da sürətlənəcəyinə əmin olduğunu qeyd etmişdir.